***Bu dağlar diyarının müasir cah-cəlalı, insanlarının zəhmətkeşliyi, təbiətinin gözəlliyi, tarixinin zənginliyi barədə sətirləri qələmə almaq istəyəndə yadıma düşən ilk məqam ötən həftə şair dostum Ramiz Qusarçaylıdan eşitdiyim fikirlər oldu. Qubanın əsrarəngiz təbiətinin qoynunda doğulub böyümüş Ramizi Qaxın gözəlliyi necə heyran etmişdisə, mənə birbaşa İlisudan zəng edərək qınadı: "Qaxda bu qədər gözəllik varsa, sən nə üçün indiyədək məni buraya dəvət etməmisən?"***

# QAX: Gəlin, görün, heyran olun...



Haqlı idi. Mənim görəcəyim işi şairin başqa bir dostu görmüş və ona Qaxın bütün gözəlliklərini görmək imkanı yaratmışdı. Dostumun fikrincə, gəzdiyi rayonların heç birində Qaxdakı İçəri bazarın




da, İmam Mustafayev küçəsinin də, İlisu yollarının da, bu günlər "çiçəyi çırtlayan" Qax meşələrinin də tayı-bərabəri yoxdur.

...Rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyevlə bir müddət əvvəl Güllük kəndində keçirilən növbəti səyyar qəbulda görüşmüşdük. Qəbulda kənd sakinlərinin içməli su probleminin həlli ilə bağlı mövcud artezian quyusunun yaxınlığına elektrik transformatorunun və mühərrikin quraşdırılması, kənddə yeni tikilmiş evlərin sənədləşdirilməsinə və kəndin əsas küçəsinin işıqlandırılmasına kömək göstərilməsi ilə bağlı təkliflər səsləndirilmişdi. Ona görə də budəfəki görüşümüzdə rayon rəhbərindən məhz həmin istiqamətdə görülən işlər barədə nələrisə eşitmək istəyirdim.

Amma, həmsöhbətim əvvəlcə ölkə miqyasında davam edən tendensiyalardan danışmağa üstünlük verdi. Qeyd etdi ki, biz rayon sakinlərinin və qonaqlarımızın problemlərlə üzləşməməsi üçün lazım olan bütün addımları atırıq. Elə keçirilən çoxsaylı səyyar qəbul-görüşlər də məhz bu məqsədə xidmət edir. Ancaq bizim daha böyük məqsədlərimiz də var. İnsanların həyat şəraitinin daha da yaxşılaşdırılması məsələsi də cənab Prezidentin qarşıya qoyduğu vəzifələrdəndir. Ancaq ölkədə başlanılan ictimai-siyasi proseslərə dərhal və lazımı şəkildə cavab vermək üçün də operativ addımlar atırıq.

Təbii ki, bu gün ölkə miqyasında qarşıya qoyulan əsas məsələlərdən biri də gənclərin



irəli çəkilməsi, onlara müxtəlif vəzifələrdə etimad göstərilməsidir. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, peşə vərdişləri aşılamaq, təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və könüllülük hərəkatını inkişaf etdirmək məqsədilə Qaxda da müntəzəm işlər aparılır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN könüllülər" şəbəkəsi ilə birlikdə rayonda ötən il aprelin əvvəlindən indiyədək 13-ü oğlan və 4-ü qız olmaqla, 17 nəfər könüllü 2 ay ərzində öz ixtisaslarına uyğun şöbələrdə təcrübə keçib və RİH başçısı tərəfindən onlara sertifikatlar təqdim olunub.

Qeyd olunan təcrübəni keçən 9 könüllü öz ixtisaslarına uyğun olaraq müxtəlif idarə və müəssisələrdə işlə təmin olunublar. Bu sahədə işlər davam etdirilir. Gənclər Fondunun işinin təkmilləşdirilməsi baxımından, Prezident İlham Əliyevin sərəncamı ilə 19 noyabr 2019-cu ildə rayonda Gənclərin İnkişaf və Karyera Mərkəzi yaradılıb. Mərkəzin əsas məqsədi dövlət gənclər siyasətinin tələblərinə uyğun olaraq, onların hərtərəfli inkişafının təmin olunması, habelə ümummilli lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsini,



azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi işinə töhfə verməkdir. Fikrimcə, bu bizim zamanın çağırışlarına verilən cavab kimi qiymətləndirilə bilər.

O ki qaldı rayonun iqtisadi göstəricilərinə, RİH başçısı bildirdi ki, bu istiqamətdə də göstəricilər ürəkaçandır. Təkcə son bir ildə rayon üzrə büdcəyə 3 milyon 951 min manat proqnoza qarşı 4 milyon 50 min manat vəsait daxil olub ki, bu da proqnozun 102,5 faizini təşkil edir. Yəni büdcəyə yığılmış vəsaitin həcmi 2018-ci illə müqayisədə 171 min manat çox olub. Sahibkarlığın inkişafı və əhalinin işgüzar fəaliyyətinin artırılması və yeni iş yerlərinin yaradılması məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən rayonda 57 sahibkara 7 milyon 926 min manat güzəştli kreditlər verilib və bunun hesabına 149 yeni iş yeri yaradılıb.

Xatırladıldı ki, rayonda bitkiçilik və heyvandarlıq məhsulları istehsalının dinamik inkişafının təmin olunması üçün nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilir. Ənənəvi istehsal sahələri olan tütünçülüyün və baramaçılığın daha da inkişaf etdirilməsinə xüsusi diqqət ayrıldığına görədir ki, ötən il 491,6 hektar sahədə tütün əkini aparılmış və 552,7 ton quru tütün tədarük olunmuşdur. Tütünçülüklə məşğul olan sahibkarlara 16,9 min manat subsidiya verilib. Eləcə də, əvvəlki illə müqayisədə 4,5 ton çox olmaqla 29,8 ton yüksək keyfiyyətli barama istehsal olunub.

Prezident İlham Əliyevin göstərişləri əsasında rayonda yaradılmış Aqropark ərazisində ötən il 136 hektar sahədə badam, 36 hektar sahədə qoz, 138 hektar sahədə üzüm bağları salınıb. Yeni salınması nəzərdə tutulan meyvə bağlarında damcılı suvarma sisteminin quraşdırılması üçün 10 və 20 min tonluq su anbarlarının tikintisi başa çatdırılıb və iki yerdə nasos stansiyası quraşdırılıb. Müəssisənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 18 ədəd müxtəlif növ aqreqat və digər texnikalar alınıb. Rayonda fəaliyyət göstərən 4 özəl toxumçuluq müəssisəsi və 2 nəfər təxil toxumçuluğu ilə məşğul olan fiziki şəxs tərəfindən 6191 ton yüksək kondisiyalı buğda, 414 ton isə arpa toxumu istehsal olunaraq məhsul istehsalçılarına satılıb.

Məlum olduğu kimi, Qaxın təbiəti burada yüksək keyfiyyətli bal istehsal edilməsinə də zəmin yaradır. Ona görə də rayonda arıçılığın daha da inkişaf etdirilməsi üçün stimullaşdırıcı addımlar atılır. Belə ki, arıçılıqla məşğul olan 797 nəfərə 21 min 684 manat məbləğində subsidiya ödənilib. Arıçılığın inkişaf etdirilməsinin təşviqi məqsədilə Qax üçün ənənəvi olan "Bal" bayramı keçirilir.

Qax həm də ölkənin əsas turizm mərkəzlərindən birinə çevrilir. Turistlərin bu rayona üz tutmasının əsas səbəblərindən biri də meşələrin çox olmasıdır. Ona görə də mövcud meşələrin qorunub saxlanılması və yeni meşə massivlərinin yaradılması gündəmdə duran əsas məsələlərdəndir. Musa müəllim dedi ki, ötən il Şəki Regional Meşə Təsərrüfatı Mərkəzinin Qax meşəbəyiliyi tərəfindən mövcud meşələrin qorunub mühafizə olunması, bərpa edilməsi, yeni meşələrin salınması istiqamətində müəyyən işlər görülüb. Belə ki, il ərzində 15,5 hektar sahədə fındıq, 4,5 hektar sahədə göyrüc olmaqla, 20 hektar sahədə meşə əkini aparılıb, 0,15 hektar sahədə tinglik salınıb, müvəqqəti tinglik sahələrində 160 min ədəd əkin materialı yetişdirilib.

İlisu Dövlət Təbiət Qoruğu tərəfindən mühafizə rejiminə əməl olunması, fauna və flora elementlərinin qorunması, qoruq ərazisində elmi müşahidələrin aparılması və əhalinin ekoloji maarifləndirilməsi istiqamətində işlər davam etdirilir. Ötən il dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmiş 650 min ağac əkini aksiyası çərçivəsində rayonun ayrı-ayrı ərazilərində 19 min ədəd müxtəlif növ ağac əkilib.

Təbii ki, turizm obyektlərinin cəlbediciliyini artıran əsas amillərdən biri də yolların rahat və müasir olmasıdır. Ona görə də son illər Qaxda yolların təmiri daim diqqət mərkəzindədir. Rayonun Ağçay, Əmircan, Meşəbaş, Turaclı və Qaraməşə kəndlərinin giriş yolu əsaslı təmir olunub, 96 kilometrlik Yevlax – Zaqatala – Gürcüstan Respublikası ilə dövlət sərhədi – Qax – İlisu avtomobil yolunun yenidən qurulması işləri başa çatdırılıb.

Tikinti-quruculuq işlərinə gəlincə isə deyə bilərik ki, son bir ildə Tasmalı və Əlibəyli kəndlərində tam orta məktəblərin, Qaradolaq, Qarabaldır, Əmircan, Qapıçay, Çinarlı, Fıstıqlı və Aşağı-Malax kəndlərində isə modul tipli məktəblərin tikintisi və Qum kənd 16 saylı körpələr evi-uşaq bağçasının əsaslı təmir işləri aparılıb. Qax şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması işləri davam etdirilir, şəhər ərazisində 48 mənzilli yaşayış binasında son tamamlama işləri aparılır. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qax rayon şöbəsinin inzibati binasının tikintisi isə başa çatdırılıb. Bundan başqa, RİH tərəfindən 105 fərdi yaşayış









evinin tikintisinə, 43 fərdi yaşayış evinin istismarına, eyni zamanda, 9 sahibkarlıq obyektinin tikintisinə və 8 sahibkarlıq obyektinin istismarına icazə verilib.

Yeni bu rayonda yarımçıq qalan bir iş, problem yaradacaq hansısa məsələ yoxdur.

Qaxın inkişafını və gözəlliyini vəsf etmək üçün mütləq bu diyarın qonağı olmalısınız. Sizi yollar qarşılayacaq, dağlar salamlayacaq. Qonaqlara dərələr təzim edəcək, insanlar isə... elə öz insanlıqlarını göstərəcəklər. Özü də yüksək səviyyədə.

...Bu günlərdə "Facebook" dostlarımızdan biri öz səhifəsində Qaxın təbiətinə həsr edilmiş şeirdən bir bənd paylaşmışdı. Doğrudur, həmin şeir bu dağlar diyarının payız gözəlliyini vəsf edirdi. Amma həmin misralarda Qaxın doğma cizgiləri əks olunub və bu yazının sonunda məhz o bəndi xatırlatmaq istədim:

*Buludlar davulla cəngə çıxırlar,*
*Dağlar ildırımı çəkir çarmıxa.*
*Yollar qonaqları qarşılayanda*
*Dərələr dumanı aparır Qaxa.*

...İnanın, o yollar sizi də salamlayacaq, o dərələr gözünüzün qabağında dumanı Qaxa aparacaq. Gəlin, görün, heyran olun!

*İlqar HƏSƏNOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*